# “Həyatım yuxularıma haram qatmaqla keçib"

*Yuxu həyatın tərs üzüdür. Bizim hər gün rastlaşdığımız insanların, hadisələrin o üzü. Burada zaman yoxdur. Şüurumuzun qaranlıq guşələrinə düşən bir qırıq işıqdır yuxu. O işığın içində tez-tez xatırladığımız, unuda bilmədiyimiz, hər gün düşüncəmizin küçələrində əli cibində veyil-veyil dolaşan adamlar yaşayır. Yuxudakı xatirələr, düşüncələr, əzablar, sevgilər, xəyallar, ümidlər bizim o biri dünyamızın sakinləridir. Yuxu bizi sarsıda da bilər, sevindirə də. Bəzən beynimizin içində eynən çöl boyu yüyürən atlar sayaq insanların xatirələrinin axını olur. Bu kütləvi axını bizə yuxular göstərir, qırıq-qırıq, zəif ssenaridə, montajı olmayan film kimi. Məşhur psixoanaliz Ziqmund Froyd yuxular haqqında ”Yuxuların yozumu” kitabını yazmışdır. Froyda görə, yuxular bizim şüurumuzda mövcud olan həyatımızdır.*

*”Yuxu qapısı” rubrikasının hazırkı qonağı yazıçı Kənan Hacıdır. Adalet.az müsahibəni təqdim edir:*



**- Froyda görə, yuxu mənasız bir şey deyil, sıxışdırılmış arzuların təhrif olunmuş, pərdələnmiş şəkildə gerçəkləşməsidir. Sizin fikriniz necədir?**

- Froydun uzun müddət bu sahəni araşdırmış alim kimi gəldiyi qənaətlər əlbəttə ki, əsassız deyil. Həyatımızın altşüura keçmiş məqamları, o məqamlara sarsıntılar, travmalar, yaddaşda dərin iz buraxan hadisələr daxildir, zaman-zaman bizim yuxularımıza sızır. Yuxular gerçəklərdən qidalanır, yuxularımızın mənbəyi bizim həyatımızdır. Bu mənada sözsüz, Froyd haqlıdır. Xəyallarımız, həyata keçməyən arzularımız bəzən yuxuda gerçəkləşir. Bütün hallarda yuxu içimizə sızmış güclü yaşantıların başqa bir formasıdır.

**-Yuxularınız həyatınıza necə təsir göstərir, yəni gördüyünüz yuxuya görə planlarınızı qurursunuz?**

- Uzun illər bundan öncə gördüyüm bir yuxu məni möhkəm sarsıtmışdı, sonralar o yuxunu hekayəyə çevirdim. Çünki gördüm ki, məni rahat buraxmır. O yuxu da güman ki, dəhşətli peşmançılıq hissinin məhsuluydu. Özümə bağışlamadığım bir səhv etmişdim və buna görə atamın ruhu qarşısında özümü günahkar sayırdım. Elə indinin özündə də bu günah hissindən əziyyət çəkirəm və özümü heç cür bağışlaya bilmirəm. Atamın ölümündən 2-3 il sonra o, ilk dəfə yuxuma gəldi, yuxuda da məndən narazı qaldığını dedi. Atamın vəfatından 20 ilə yaxın vaxt keçib, hələ də o səhvi düzəltməyə çalışıram. Hələ ki, gücüm çatmır. Amma hansı yuxuya görə plan qurmağım yadıma gəlmir.

**- Yuxudan sonra onun yozumları haqda baş sındırırsız?**

- Nadir hallarda yuxu görürəm və çox vaxt elə səhər də gördüyüm yuxunu unuduram. Heç vaxt da gördüyüm yuxuları yozmağa cəhd etməmişəm. Adamlar var ki, hansısa hadisə baş verəndə deyir, yuxum çin oldu və yaxud deyirlər mən yuxumu görmüşəm. Xürafata meylli adamlar belə şeylərə daha çox inanır. Gələcəklə bağlı yuxuların siqnal verməsinin heç bir elmi əsası yoxdur. Yuxular keçmişdən yaranır, belə deyək, yuxunun bazası bizim keçmişimizdir.

**- Yunan filosofu Heraklitin yuxu haqda məşhur bir sözü var: ”Oyanıq olan insanlar üçün tək bir dünya vardır. Yuxuda olanların isə hər birinin ayrı bir aləmi vardır, onun içində hey fırlanırlar”. Siz necə fikirləşirsiniz?**

- Bu haqda düşünməmişəm. İnsanların gördükləri yuxular fərqlidir, bu, onların yaşam tərziylə, düşüncələriylə, dünyaya baxışıyla əlaqəlidir. Necə ki, hər insanın öz daxili dünyası var, eləcə də yuxular da onun dünyasının fraqmentləridir. Hər insanın həyatını mətn kimi götürsək, yuxular da mətn içində mətndir.

**- Yuxuların mistik hadisə olduğuna inanırsınızmı?**

-”Fironun dəftəri” romanında bu fənddən istifadə etmişəm, mətnin strukturu bunu tələb edirdi deyə etdim. Sözsüz, insanın yatarkən yuxu görməsiylə mistika arasında istənilən bağlılıq tapmaq mümkündür. İnanmaq deməzdim, hansısa bir əlaqənin olub-olmamasını həmişə düşünmüşəm. Bu, təxminlər, fərziyyələr halında olub. Froyd bunu fizioloji baxımdan araşdırıb. Amma biz şərq insanı olaraq həmişə yuxularda bir İlahi əlaqə axtarmışıq. Amma hələ ki, dəqiq bir nəticəyə gələ bilməmişik.

**- Gördüyünüz yuxular çin olurmu, ya da əksinə?**

- Təəssüf ki, gördüyüm yuxunu çox tez unuduram, buna görə çin olma ehtimalı da yoxdur.

**- Həyatınızda gördüyünüz ən yadda qalan yuxu və ən gözəl yuxu hansılardır?**

- Birini bayaq dedim, atamla bağlıdır. Bir dəfə də yenicə evlənmişdim, anamı yuxuda gördüm və gecə yarısı oyanıb yatağımda hönkür-hönkür ağladım. Bir dəfə də yenə atamı yuxumda gördüm. Uçurumun kənarıyla gedirdik, o, qabaqda, mən arxada, mənim dizlərim əsirdi. O isə mənə ”qorxma, gəl” deyirdi. Həmin vaxt çox narahat günlər yaşayırdım, qəribədir ki, o yuxudan sonra çox rahatlaşdım, sanki toxtaqlıq tapdım.



**- Bəzi adamlar yuxuda ağqara filmə baxırlar. Bunun səbəbi hələ bilinmir. Amma alimlər onu bildirir ki, insanların 12 faizi ağ-qara yuxu görür. Siz necə düşünürsünüz?**

- İnsan yuxu görərkən onun rənglərini necə müəyyən edə bilər? Axı yuxuda rənglər haqda düşünmürsən və bunun fərqində olmaq imkanın olmur.

**- Yuxularınıza haram qatmısınız?**

- Mənim həyatım başdan-başa yuxularıma haram qatmaqla keçib. Uşaqlığı çıxsaq, nə vaxtsa rahat, asudə yatdığımı xatırlamıram.

**- Sizə görə yuxularımız həqiqətə çatdırır bizi?**

- Yuxular bizə həqiqəti xatırladır.

**Oğuz Ayvaz**



Ədalət.-2016.-22 oktyabr.S.5.